# Azərbaycanda SEQ : Hüquqi və praktik təcrübə

# SEQ üzrə milli hüquqi çərçivənin hazırki vəziyyəti

**Aysel Rzayeva**
*Espoo Konvensiyası üzrə milli əlaqələndirici*

Bakı, 26-27 Aprel, 2021

# Hüquqi təcrübə

- Ətraf mühitin mühafizəsi haqqında Qanun, 1999
- "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1175-VQ nömrəli Qanununun 3-cü Fəsli və uygun müddəaları.
- ƏMTQ və SEQ sahəsində nəzarətin həyata keçirilməsi qaydası - qəbul edilib (02.10.2019/425 nömrəli)
- "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 12 iyun tarixli 1175-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2018-ci il 193 nömrəli Fərmanının 1.1.5-ci yarımbəndinə uygun olaraq, "Strateji ekoloji qiymətləndirmənin aparılması Qaydası" nın müəyyən edilməsi tapşırığı verilmişdir.

## SEQ üzrə milli hüquqi çərçivə və hazırki vəziyyəti

*Ümumlikdə Ətraf mühitə təsirin qiymətləndirilməsi sahəsində 5 qayda və 1 Əsasnamə layihəsi hazırlanmışdır, onlar birbaşa və dolayı SEQ-lə əlaqədardır:*

- ƏMTQ və SEQ sahəsində nəzarətin həyata keçirilməsi qaydası - qəbul edilib (02.10.2019/425 nömrəli)
- "Dövlət ekoloji ekspertizasını həyata keçirən Ekspert Komissiyası haqqında Əsasnamə"- qəbul edilib (05.02.2020/31 nömrəli)
- ƏMTQ üzrə qiymətləndiricilərin ixtisas attestatının formasını və attestatın verilməsi, qüvvədəolma müddətinin dayandırılması və ya onun ləğv edilməsi qaydası, eləcə də ƏMTQ üzrə qiymətləndiricilərin və ətraf mühitə təsirin qiymətləndirilməsi üzrə təşkilatların reyestrinin aparılması və onların fəaliyyətinə nəzarətin həyata keçirilməsi qaydası – qəbul edilib (27.11.2019/№ 457)
- Dövlət və İctimai ekoloji ekspertizanın həyata keçirilməsi qaydası – qəbul edilib (21.05.2020/184 nömrəli)
- SEQ-nin aparılması qaydası – daxili məsləhətləşmə prosedurundan keçmişdir – NK-ya təqdim edilmişd**ir - qəbulu gözlənilir**
- Ətraf mühitə təsirin, o cümlədən transsərhəd təsirin qiymətləndirilməsinin aparılması qaydasının və müddətinin müəyyən edilməsi – dövlətdaxili məsləhətləşmə prosedurunu keçmişdir - **qəbulu gözlənilir**

# SEQ-in hüquqi tətbiqi üçün əsas tələblər:

**SEQ obyektləri:**

- kənd təsərrüfatı, meşəçilik, balıqçılıq, enerji, sənaye, nəqliyyat, tullantıların və suyun idarə olunması, torpaq ehtiyatlarının istifadəsi, turizm və telekommunikasiya sahələri üzrə strateji sənədlərin layihələri;
- ərazi planlaşdırılması sənədlərinin layihələri;
- ətraf mühitin mühafizəsi və ekoloji təhlükəsizlik sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq və konsessiya müqavilələrindən irəli gələn layihələr.
- Fövqəladə hallar, dövlətin müdafiəsi, habelə maliyyə və büdcə məsələləri ilə bağlı strateji sənədlərə SEQ tətbiq edilmir.

***Qeyd:*** *Hazırlanan strateji sənədlər (plan, proqram, strategiya və konsepsiyalar) Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi haqqında Qanunun Əlavəsində göstərilən siyahıdakı fəaliyyətlərin gələcək icrasını ehtiva etməlidir.*

## SEQ praktik təcrübədə:

- Strateji sənəd layihəsi planlaşdırıcı orqan tərəfindən hazırlanır

- Digər qurumlarla məsləhətləşmələr keçirilir

- İctimai dinləmə keçirilir və ictimaiyyət təklif bildirir

- SEQ sənədi planlaşdırıcı orqan tərəfindən ekoloji ekspertizaya təqdim edilir, müvafiq rəy verilir.

- Rəyə uyğun düəliş edilmiş strateji sənəd yekun qərarı verən müvafiq icra orqanına təqdim edilir.

- Rəylə razılaşdırılmayan məqamlar varsa, ekoloji ekspertiza rəyi sənədlə birlikdə müvafiq icra orqanına təqdim edilir.

İndiyədək 2 plan layihəsinə SEQ tətbiq edilmişdir :

- *Bakının Master Planına SEQ*
- *Bərpa olunan enerji strategiyası - 2015-2020*

Azad olunmuş ərazilərdə erməni işğalı müddətində ciddi təsirlərə məruz qalmış ekoloji durum və müvafiq qurumlar tərəfindən ərazilərin bərpası ilə əlaqədar hazırki intensiv planlaşdırma fəaliyyətləri nəzərə alınaraq, ETSN tərəfindən SEQ-in tətbiqinin zəruriliyi ilə əlaqədar təbliğat işlərinə başlanılmışdır.

Bir sıra planlaşdırıcı orqanlar tərəfindən SEQ-in həmin ərazilərdə tətbiqi artıq nəzərdə tutulmuşdur.

Təşəkkür edirik!